# “Akademikin son əsəri” romanında Ziyad Şixlı obrazı tarixi reallıqlar kontekstində

**Xalidə Yaşar qızı Zamanova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Gəncə Dövlət Universiteti*
**E-mail:** xalide.zamanova2@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., prof. B.B. Əhmədov,
filol.ü.e.d., dos. S.M. Alməmmədova

**Açar sözlər:** repressiya, akademik, deportasiya, mövzu, roman, tarix, yazıçı
**Ключевые слова:** репрессии, академик, депортация, тема, роман, история, писатель
**Key words:** repression, academic, deportation, subject, novel, history, writer

Azərbaycan ədəbiyyatının tarixi mövzuda çoxlu bədii nailiyyətləri olmuşdur. M.S.Ordubadi, Y.V.Çəmənzəminli, İ.Şıxlı, İ.Hüseynov, Ç.Hüseynov, Ə.Cəfərzadə və b. yaradıcılığında tarixi mövzuya maraq bədii düşüncəmizin sonrakı inkişaf yoluna da öz təsirini göstərdi. Tarixi roman janrı yarandığı vaxtdan bəri zəngin bir inkişaf yolu keçdi. Ədəbiyyatşünas Y. Qarayev tarixi mövzunun ədəbiyyatımızdakı bu vüsətini düzgün qiymətləndirərək yazırdı: “Xalqın milli mənəviyyatının müasir mərhələdəki təkamülünü onun tarixi keçmişinin realist bədii tədqiqi zəminində izləmək və müasirliyin doğurduğu bir çox köklü suallara xalqın min illik əxlaqi və mənəvi təcrübəsinin dərslərində cavab tapmaq bu əsərlərin ən yaxşıları üçün ümumi olan başlıca ideya-bədii və vətəndaşlıq məqsədini təşkil edir” (1, s. 382).

Müstəqillik dövrü Azərbaycan yazıçılarının tarixə müraciəti daha da intensiv xarakter alır. Bunun bir səbəbi xalqın keçmişini ortaya çıxarmaqdan irəli gəlirdisə, digər səbəbi totalitar rejimdə tarixi mövzunun yazılmasına olan ideoloji baryerlərin yoxluğundan, azadlıq duyğusundan baş verirdi. Bunun nəticəsidir ki, son iyirmi ilə tarixi mövzuda yazılan əsərlər ona qədərki yüz illik nəsri geridə buraxmışdır. Əgər müstəqillik dövrünə qədər nəsrimizdə yazılan tarixi romanları barmaqla saymaq mümkün idisə, postsovet dövründə tarixilik axtarışları bir neçə dəfə artmışdır. Özü də yazıçılar tarixin hər hansı problemini yazmaq üçün onların qarşısında heç bir mövzu məhdudiyyəti olmamışdır. Bu mənada S. Rüstəmxanlının yaradıcılığı həm də müstəqillik dövrün tarixi nəsrinin faktıdır. Onun bu dövrdə yazdığı “Ölüm zirvəsi”, “Göy tanrı”, “Xətai yurdu”, “Ölüm zirvəsi”, “Difai fədailəri”, “Sunami”, “Şair və şər” və s. əsərləri tarixiliklə müasirliyin vəhdətini bədii şəkildə ifadə edir. Yazıçının tarixi mövzuya münasibətində xalqın tarixində olan həqiqətləri çatdırmaq, keçmişini özünə qaytarmaq, xalq taleyinin gələcəyini bəlirləmək və milli tarixə vahid konsepsiya ilə baxmaq missiyası dayanır. Bu mənada S.Rüstəmxanlının “Akademikin son əsəri” romanı ideya-məzmun müxtəlifliyi, janr-üslub zənginliyi, strukturu, bədii yenilik axtarışları ilə diqqəti cəlb edir.

“Akademikin son əsəri” yazıçının ən son əsərlərindən biridir. Digər tarixi romanlarından fərqli olaraq bu əsər yaxın tariximizi əks etdirir, bəzən yaşadığımız və müşahidə etdiyimiz hadisələrin təsvirinə rast gəlirik. Lakin romanın yaxın dövrün hadisələrini əks etdirməsi tarixilik və müasirlik tənasübünü pozmamış, yazıçı fərdi tale ilə xalq taleyini zaman və məkan müstəvisində təsvir edə bilmişdir. Hər hansı bir tarixi roman yalnız keçmişi əks etdirmir, həm də bu günü anlamağa yardımçı olur. Bu cəhətdən yaxın tarixin hadisələrin, dövrün ümumi ruhunu, mənəvi-əxlaqi, fəlsəfi dərkini vermək, obyektivliyi gözləmək bir qədər çətin olur. Çünki hər

hansı bir hadisənin bədii dərkini vermək üçün onun üstündən müəyyən zaman keçməsi lazım gəlir. S.Rüstəmxamnlı “Akademikin son əsəri”ndə məhz bu amili gözləmiş, yalnız bu günün hadisələrini deyil, retrospeksiya vasitəsilə son yüzillikdə xalqın həyatında baş verən hadisələri vahid süjet xəttinə bağlaya bilmişdir. Elə buradaca qeyd edək ki, yazıçı romanı yalnız akademikin-bir qəhrəmanın ətrafında qurmamış, əsər içində əsər, süjet daxilində bir çox süjetlər quraraq ənənəvi yoldan imtina etmişdir. Baxmayaraq ki, ədəbi mühitdə əsəri Z. Bünyadov haqqında yazılmış roman kimi təqdim edənlər də olmuşdur.

Yazıçı Elçin Hüseynbəyli romanın mövzusu, ideyası, obrazları və özəlliklərinə yüksək qiymət verərək yazır: “Bu əsər elə bir şəxsiyyətə həsr olunub ki, bizim nəsil onu tanıyırdı, həm özünü görmüşdü, həm çıxışlarına qulaq asmışdı, həm də cəsarətinə heyrətlənmişdi. Amma bizlər də akademik Z. Bünyadovun (romanda Ziyad Şıxlının) şəxsiyyətini tam bilmirdik, çünki onu yaxından tanımırdıq, xarakterinin özəlliklərini, “donkixotluğunu” (ifadə S.Rüstəmxanlıya məxsusdur) duymamışdıq” (2, s. 13).

E.Hüseynbəyli bu fikrində ona görə haqlıdır ki, əsərin baş qəhrəmanı Ziyad Şıxlıdır. Lakin onu bütünlüklə bioqrafik roman da adlandırmaq düzgün olmazdı. Çünki Ziyad Şıxlı və onun ətrafında baş verən hadisələr romanda verilmiş süjetlər zəncirinin yalnız bir hissəsidir. Digər süjet xətləri Ziyad Şıxlının yarımçıq əsərində baş verən hadisələr, Altay Qızılbaş və eləcə də Muradın ətrafında baş verən hadisələrdir.

Tənqidçi Tehran Əlişanoğlu da roman haqqında ilkin təəssüratın doğru olmadığı ilə razılaşmayaraq yazır: “Akademikin son əsəri” çıxar-çıxmaz ədəbi informasiya aləmində sorağı belə yayıldı ki, Sabir Rüstəmxanlı akademik Ziya Bünyadov haqqında roman yazmışdır. Əlbəttə, bu dürüst informasiya deyildi. Hadisələr və həyat faktlarından romanın qəhrəmanı Ziyad Şıxlı obrazının arxasında (prototip) məhz akademik Z. Bünyadovun durduğunu görmək heç də çətin olmasa da, məsələn, “Şair və şər”dən (Məhəmməd Hadi haqqında roman) fərqli olaraq, “Akademikin son əsəri” bioqrafik roman strukturunda qurulmamışdır” (3, s. 24).

Göründüyü kimi, T.Əlişanoğlu da Ziyad Şıxlı obrazının əsasında Ziya Bünyadovun prototipinin dayandığını qeyd edir. Bütün hallarda romanın əsasında akademik Ziya Bünyadovun prototipinin dayandığını da görməmək mümkün deyil.

Romanın mərkəzi süjet xəttində, heç şübhəsiz, akademik Ziya Bünyadovun prototipi olduğu Ziyad Şıxlı obrazı və onun ətrafında baş verən hadisələr dayanır. Lakin burada süjet xətti haçalanır; birincisi, Ziyad Şıxlının son on ildə Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsi; ikincisi, müharibə qəhrəmanı olması, üçüncüsü, yarımçıq qalmış əsərində və gündəliyində xalq taleyinin əks olunması. Təsadüfi deyil ki, əsər akademikin son əsərindən parçalarla başlayır.

Bununla yazıçı əsər içində əsər bədii formasından istifadə edir. Akademikin son əsərindən verilmiş iki parçadan görünür ki, xalqı, milləti iki böyük fəlakət gözləyir. Bunlar xalqın başına gələn faciələrin iç və xarici səbəbkarlarını görmək olar. Bunlardan biri sovet dövründə xalqın mənəvi aşınmaya məruz qalması, digəri isə soyqırım, köçürülmə və erməni terroru ilə üzüzə qalmasıdır. İkinci məsələ ilə bağlı akademikin son əsərində erməni katolik kilsəsinin patriarxı Katolikos Bodrusun Roma papası ilə görüşün təsvirindən Dağlıq Qarabağ probleminin miqyası aydın görünür. Bu xətt əsərin ortalarında “Ziyad bəyin gündəliyi” fəslində davam edir. Problemin bu qədər qlobal səciyyə daşıması akademiki dərindən düşündürür. Bu düşüncələr onda belə bir qənaət formalaşdırır: “Qarabağı itirmişik. Müvəqqəti itirmişik deyirik, lakin bu müvəqqətinin nə vaxt bitəcəyini kimsə bilmir. Ancaq bu xəmir çox su aparacaq. Bəlkə heç bizim ömrümüz çatmadı” (4, s. 121-122).

Akademikin gündəliyini onun daxili dialoqu da adlandırmaq mümkündür. Belə ki, akade-

mikin gündəliyində xalqın son illərdə başına gələn faciələrin səbəbləri araşdırılır. Rusiyaya zorla birləşdirilmiş, işğal edilmiş xalqın taleyində tarixin məntiqinə uyğun qaçılmaz sonluğu labüd edən faktorlara nəzər salır. Nəriman Nərimanovun taleyi sonrakı illərdə də təkrarlanmış, vaxtilə Siyasi büro üzvlüyünə və ölkənin ən yüksək vəzifələrindən birinə yüksəlmiş ağsaqqalın Qorbaçovun qısqanclığı üzündən Moskvada vurulmuş ağsaqqalın burada olmaması, eləcə də ölkə başçılarının fərasətsizliyi də bu səbəblərdən idi. Ziyad bəyin gündəliyində Azərbaycanın 92-93cü illərdə başına gələn hadisələr təsvir edilir. Gündəlikdə Ziyad Şıxlının bu hadisələrdən necə baş çıxarması, gələcəyi görməsi, Qarabağ məsələsini həll etmək, çıxılmaz vəziyyətdən çıxmaq üçün ağsaqqalı Bakıya dəvət etməsini görürük.

Azərbaycanın uzaq tarixinin tarixi problemləri ilə məşğul olan akademiki yaxın tarixi hadisələrin mərkəzində görürük. Gündəlikdən aydın olur ki, Azərbaycanın taleyi ilə bağlı müxtəlif rəhbərlərə öz iradını, məsləhətini çatdırır, mümkün olduğu qədər yaxın tarixdə xalqına xeyir verməyi qarşısına məqsəd qoyur. Yazıçı bütün bunlarla xalqın uzaq tarixində baş verən hadisələrlə yaxın tarix arasında bir yaxınlıq, oxşarlıq olduğunu da görür. Yazıçı akademikin son əsəri ilə yanaşı onun arxivindən üç qovluğu haqqında danışır. Bu qovluqlarda olan sənədlər akademikin fəaliyyətinin ayrı-ayrı sahələrini əks etdirir. Birinci qovluqda 1937-ci ilin terror hadisələri əks olunur. Məlumdur ki, Z.Bünyadov ilk dəfə olaraq sovet rejiminin törətdiyi “qırmızı terror”un mahiyyətini özünün “Qırmızı terror” (Bakı, Azərnəşr, 1993) kitabında açmışdır. Akademikin terror hadisələrini araşdırmasının əsasında həqiqət axtarıcılığı dururdu. Beləliklə, yazıçı Ziyad Şıxlını həm müharibə illərində, həm bir alim kimi qədim tarixin araşdırılmasında, həm terror hadisələrinin işıq üzü görməsini və müasir hadisələrin mərkəzində dayanmasını həqiqət axtarıcılığına bağlayır. Ziyad Şıxlı obrazında oxucu həqiqət mücəssəməsini görür. Arxivindəki ikinci qovluqda isə şeirləri, esseləri, tamamlamadığı hekayələri və şairlərə yazdığı parodiyaları və sarkazmları yer alır. Yazıçı burada tarixilik prinsipinə əməl etmişdir. Çünki Ziya Bünyadovun mətbuat səhifələrində məhz bu cür parodiyaları vaxtaşırı çap olunur və ədəbi mühitdə böyük rezonans doğururdu. Ömrü boyu qədim tarixlə bağlı başqa dillərdə yazılmış mənbələri araşdıraraq elmi üslubda məqalələr yazan, araşdırmalar aparan akademikin bədii dilinin zənginliyi, məcaz və təşbehlərin rəngarəngliyi, satirik sarkazmı yaradıcılığının yeni bir istiqamətini göstərirdi.

Yazıçının arxivindəki üçüncü qovluqda isə “nağıl-roman” adlandırdığı yarımçıq qalmış bir əsəri vardır. Əsərin tamamlanmamasının səbəbini isə tək özü bilirdi. Lakin əsərdən görünür ki, hadisələr nağıl dili ilə təsvir olunsa da, özündə həm də müasir tarixi əks etdirir və əgər çap olunarsa baş qəhrəmanın kimliyi aydın görünmüş olar. “Roman-nağıl”da kiçik ölkələrdən birində əsl adının Şirbala olduğu Aslan nazirin əməlləri təsvir olunur. Adı pis xətlə və səliqəsiz yazılmış doğum şəhadətnaməsində “bala” sözü “bəla” kimi oxunurdu. Bu ad Aslan nazirin fəaliyyəti ilə xarakterini və xalqa münasibətini birləşdirirdi. Sanki tarix elə Aslan nazirdən başlamışdı. Millət “gözünü açar-açmaz onu nazir kürsüsündə” görmüşdü. Ölkənin bütün bilgiləri onun əlindəydi, hər şeyə o nəzarət edirdi: “Küləklər hardan hara əsir, ölkəyə xaricdən kimlər tələsir; amma bunların hamısından da çox ölkə daxilində vətəndaş nə ilə nəfəs alır, nə düşünür? Yüz minlərlə əsaslı-əsassız dosye... Bütün iplər əlində. Kimi istəsən qaralasın, kimi istəsən qaradan ağa çıxarsın. Gizlinlər xəzinəsi, şantajlar akademiyası, xof maşını...” (4, s. 136).

Bu ölkədə hakimiyyətlə xalq arasında uyumluluq yoxdur, xalq elə bir gün görmür. Sarayda və ölkədə hər şey dinlənilir, hər şey nəzarətə alınır. Akademikin bu “nağıl roman”ı ilə Corc Oruelin “1984” romanı arasında bir yaxınlıq vardır. Fikrimizcə bu yaxınlıq təsvir obyektinin eyniliyindən irəli gəlir. “1984” romanında da hadisələr totalitar rejimdə cərəyan edir. Burada

Həqiqət Nazirliyi olsa da, həqiqətdən əsər-əlamət yoxdur. Sevgi Nazirliyi, Sülh Nazirliyi, Rifah Nazirliyi, Fikir Polisi və s. rejimi ayaqda saxlamaq üçün yaradılan cəmiyyəti nəzarət altında saxlayan faktorlardandır. İri hərflərlə yazılmış "BÖYÜK QARDAŞ SƏNƏ BAXIR" reklamı hər yerdə hər zaman insanları təqib edir. İnsanlar nəzarət olunduqlarını belə bilmirlər: "Teleekran eyni anda həm səs yazır, həm də efirə verirdi. Əgər hansısa söz çox yavaşdan, pıçıltı ilə deyilməsəydi, mütləq teleekranın yaddaşına düşürdü. Səsin yazılması bir yana qalsın, tutqun güzgünü xatırladan metal lövhə görünmə əhatəsində olduğu müddətdə həm də adamın təsvirini yaddaşa köçürürdü. Heç kəs o anda özünün nəzarətdə olub-olmadığını bilmirdi. Fikir polisinin sənin ekranına hansı qrafik əsasında, hansı zaman fasilələri ilə qoşulduğunu isə yalnız ehtimal etmək mümkün idi" (5, s. 2).

C. Oruelin "1984" əsərində olduğu kimi, şərti olaraq akademikin əsərində də özündən əvvəlki tarix yoxdur, silinib. Görünür, əsərin yarımçıq qalması və ya tamamlanaraq çapa verilməməsi müəllifin təsvir etdiyi cəmiyyətin içində yaşaması olmuşdur. Corc Oruel isə yaşadığı cəmiyyəti deyil, sovet cəmiyyətini nəzərdə tutmuşdur. Maraqlıdır ki, sovet sistemi "Heyvanıstan" əsərinin müəllifini öz tərəfinə çəkməyi düşünürdü. Lakin C.Oruel "1984" romanı ilə mövcud sistemə yeni bir zərbə vurmuşdur. Professor Vilayət Quliyev C.Oruelin romanını qiymətləndirərkən yazır: "Təbii ki, birbaşa Böyük Qardaşın özünə gedib çıxan bütün bu bəlalara qarşı mübarizədə isə o, tənha və köməksizdir. Əslində, Uinston hər hansı mübarizə haqqında da fikirləşmir. Bu, Don Kixotun yel dəyirmanları ilə vuruşmasından da ağılsız və nəticəsiz, sonu labüd ölümlə bitən bir addım olardı. Uinston sadə bir suala cavab axtarır. Bilmək istəyir ki, insanların həyatı həmişəmi çağdaş Okeaniya cəmiyyətindəki kimi miskin və fərəhsiz olub? Həmişəmi cəmiyyət indiki kimi bütün dəyərlərə arxa çevirərək yaddaşsız, keçmişsiz və gələcəksiz yaşayıb?" (6, s. 12). Maraqlıdır ki, "Akademikin son əsəri" romanının özündə də Ziyad Şıxlını Don Kixotla müqayisə edirlər. Deməli ki, Ziyad Şıxlı həm özünün yarımçıq qalmış əsərində, həm də S.Rüstəmxanlının "Akademikin son əsəri" romanında Uinstonla eyni taleni yaşayır. Sadəcə olaraq birində müəllif, digərində isə obraz kimi. Akademikin "nağıl-roman"ı yarımçıq olsa da, müəllifin yaşadığı cəmiyyət haqqında tam təsəvvür yaradır.

Romanda Ziyad Şıxlının həm müstəqillik ərəfəsi xalq hərəkatında, həm də müstəqillik zamanı ictimai proseslərdəki fəaliyyəti də tarixi gerçəkliyə uyğun olaraq verilir. Biz burada onu həm İkinci Dünya müharibəsinin qəhrəmanı, həm də görkəmli şərqşünas, tarixçi kimi görürük. Cəmiyyətin sayılıb seçilən, döşündə Sovet İttifaqı Qəhrəmanı Qızıl ulduz medalını gəzdirən Ziyad Şıxlı xidmət etdiyi sistemin mahiyyətini daha yaxşı dərk edir. On minlərlə həmvətəni kimi Alman faşistlərinə qarşı canından keçməyə hazır olarkən Stalin-Beriya-Mikoyan üçlüyünün xalıq repressiya və deportasiyaya məruz qaldığının mahiyyəti onun üçün aydın olurdu: "Biz Avropa yollarını dizin-dizin sürünərək faşistləri Rusiyadan çıxaranda... Stalin də mənim millətimi Krımdan, Şimali Qafqazdan, Gürcüstandan, Ermənistandan qoparıb evlərini yağmaladırmış" (4, s. 98).

Son illərdə baş verən Dağlıq Qarabağ iddiaları, Sumqayıt hadisələri, 20 Yanvar qırğını və s. yüz ildən çox davam edən siyasətin davamı olaraq görünür. Yazıçı burada Ziyad Şıxlının daxili monoloqları kontekstində keçmişlə bağlı düşüncələrini verir. Kənan Hacı qəhrəmanın xarakterini əsər haqqında yazdığı "Məğlub qəhrəman, qalib akademik" məqaləsində düzgün açaraq yazır: "Akademik arxivlərdə repressiya qurbanlarının aqibətiylə tanış olduqca özünü qalib kimi deyil, məğlub kimi hiss edir, döyüşlərdən sağ çıxdığına heyfsilənir. Böyük aldanışdan doğan sarsıntılar onun mənəvi rahatlığını əlindən alır. O, bu dəfə uğrunda canını qoyduğu imperiyaya qarşı savaşa qalxır" (7, s. 18).

Ziyad Şıxlının prototipi Ziya Bünyadovun həyatı və tərcümeyi-hal materialı burada da ya-

zıçıya gərək olur. Belə ki, yaxın tariximizdə 20 Yanvar qırğınından sonra Bakıda komendant saatı elan edilmiş və polkovnik Vladimir Bünyadov şəhərin komendantı təyin edilmişdir. Bu fakt yazıçıya dövrün qaranlıq qalan bəzi məqamlarına işıq tutmağa imkan verir. Yazıçı Ziyad Şıxlının oğlunun komendant təyin olunmasını bir neçə amillə bağlayır. Birincisi, imperiya xalqı idarə etmək çün xalqın öz içindən çıxmış birisini göndərir. İkincisi, neçə vaxtdır Mərkə-zə qarşı özünün sərt çıxışları ilə seçilən Ziyad Şıxlını xalqın gözündən salmaq, susdurmaq məqsədi güdürdü. Hər iki amil əsərdə müxtəlif detallar vasitəsilə təsvir edilir. Vaxtilə "Qafqaz uğrunda! Azadlıq uğrunda!"-, deyərək sinəsini qabağa verən Ziyad Şıxlı bütün həyatı boyu ədalətli olmağa çalışmış, cəmiyyətdə öz sözünü demişdir. Hətta 70-ci illərdə ölkə rəhbəri L.İ.Brejnev Sovet İttifaqı qəhrəmanlığının qızıl ulduz medallarını sinəsinə düzəndə ölkədə yalnız o etiraz səsini çıxararaq "Əlinizdə ixtiyar var deyə, xalqı alçaltmayın. Qızıl Ulduzu qəhrəmanlığa görə alarlar, vəzifə borcunu yerinə yetirməyə görə yox!",-deyə etiraz məktubu da göndərmişdi. Bu məktuba Moskvadan dərhal etiraz reaksiyası özünü göstərmişdi. Moskva-dan gələn bir məmura akademik məsələni izah etməyə çalışmış, lakin qonağın qanmadığını, üstəlik ona nəyi isə başa salmaq istədiyini görəndə sərt xarakterini işə salmışdı: "Zırramanın biri zırrama! Sən kimsən mənim üstümə gəlmisən? Sənin kimi padonokları çox görmüşəm. Düşündüyümü məktubda yazmışam. Oxuyub nəticə çıxarmaqdansa, atıla-atıla bura niyə gəlir-siniz? Minlərlə dostum bu ölkə üçün yaşamaq haqqından keçdi. İndi söz haqqımızı da əlimiz-dən alacaqsınız? Lazım olsa, yazdıqlarımın ardınca özüm də gələrəm və yazmadığım başqa sözləri də üzünə deyərəm onun" (4, s. 66).

Ziyad Şıxlının mövcud hakimiyyətə, sistem rəhbərlərinə qarşı bu sərt hərəkətlərini 80-ci il hadisələrində də görürük. Dağlıq Qarabağ hadisələri başlandığında ilk gündən obyektiv və mövqedə dayanaraq mərkəzin iç üzünü açmağa nail olur. Öz sözünü ən yüksək səviyyədə de-yir. Onun yerinə gələn Polyaniçkoya da öz sözünü deyir. Onun döyüşçü xarakteri tezliklə onu xalqın içinə meydanlara aparır. Azərbaycan rəhbərliyinin "Xalqı sakitləşdirin, Moskva ilə danışırıq, Hər şey yaxşı olacaq. Qanun bizim tərəfimizdədir" sözlərinə qətiyyən inanmayaraq xalqa həqiqəti söyləyir. Müharibənin ağır, əzablı yollarından keçən akademik mərkəzdən gön-dərilən akademik Saxarovların, Starovoytovaların qarşısına çıxır və öz sözünü deyir. Moska-vanın göndərdiyi Saxarov, Y.Bonner, Starovoytova üçlüyünə qarşı sərt çıxışı Azərbaycanın ikinci katibi, əslində isə "çar dövrünün canişini" rolunu oynayan Kanovolov onu qonaqları təhqir elədiyini bildirir. Ziyad Şıxlı bu "canişinə" sərt şəkildə fikrini bildirir: "-Mən onu təhqir etməmişəm, yerini göstərmişəm. Sənə fizik kimi hörmətimiz var, - demişəm, - ancaq Xanım Bonnerin təsirinə düşəndən, ixtiyarını ona verəndən və siyasətə qarışandan sonra yolunu çaş-mısan... Mən sizə Qarabağ məsələsinin çözüm yolunu təklif edirəm!, - deyir. Nəymiş bu çö-züm yolu? Ermənistan Naxçıvanla arada Meğri dəhlizi açacaqmış, Azərbaycan da Dağlıq Qa-rabağı Ermənistana verəcəkmiş... Bonnerin, Staravoytovanın fitvasıyla sərsəmləyən bu qoca-ya nə cavab vermək olardı?" (4, s. 51). Ziyad Şıxlı Konavalova Ermənistandan gələn qaç-qınları nə üçün Qarabağda yerləşdirməməsinə qarşı çıxır: "-Ermənistandan gələn avtobusları Ağdamdan geri qaytartdırmısınız. Niyaə qoymursunuz qaçqınlar öz evlərini dəyişib Dağlıq Qarabağa yerləşsinlər", sualına Konavalov "Amma Moskva istəmir..." cavabını verir. Ziyad Şıxlı dərk edir ki, Moskva məsələnin həllini istəmir. Moskva "canişini" Ziyad Şıxlıya guya mərkəz olmasa "ermənilərlə azərbaycanlılar bir-birini qıracaqlarmış" kimi yanlış məlumatı da təkzib edir. Azərbaycanlıların əlindən ov tüfənginin belə alındığı həqiqəti "canişin"in üzünə deyir. Konavalovun qarşısındakı akademik-qəhrəmana heç bir arqumenti qalmayanda onu "ekstremist" adlandırmaqdan başqa çarəsi qalmır. Konavalovla mübahisələri tezliklə faktiki rəhbərlikdə olan ikinci adamın işini itirməsi ilə nəticələnir, Moskva ifşa olunmuş bir canişini

başqa bir canişin Polyaniçko ilə əvəzləyir.

İlk gündən həqiqətləri yazaraq ayrı-ayrı ziyalılara qol çəkdirmiş və Moskvaya göndərmişdi. Halbuki bəziləri imza atmağa belə qorxmuşdu. Ordunun şəhərə girməməsi üçün Moskvadan gələn nazirlər, generallar, müdafiə naziri Yazov və Yevgeni Primakova da öz fikirlərini demiş, Azərbaycanın haqq işini müdafiə etmişdir.

S.Rüstəmxanlı Ziyad Şıxlının bu dövrdəki fəaliyyətini bir neçə detalla obyektiv təsvir edir. Biz onu həm elm, həm azadlıq, həm də ermənilərə qarşı döyüş cəbhəsində görürük. Vaxtilə faşistlərə qarşı apardı həmin mübarizə kimi ahıl yaşındakı bu mübarizəyə və həqiqətin tərəfində durduğuna əmindir. Yazıçı 80-ci illərin sonunda Sovetlər İttifaqında Qorbaçovun rəhbərliyi ilə gedən ictimai-siyasi proseslərdə də Ziyad Şıxlının öndə olduğunu, xalqın yanında dayandığını göstərir. Bu proseslər Qorbaçovun rus imperiyasının tarixən burada yürütdüyü siyasətin bir tərkib hissəsi hesab edir. I Pyotrun, Yekaterinanın, Stalinin formaca müxtəlif, məzmunca eyni olan siyasətində türklərə qarşı soyqırım və depoertasiyanın təzahürü kimi baxır. Qorbaçovun yenidənqurma adı ilə ortaya atdığı bu dönəmi "...demokratiya deyil, xalqları birbirinə düşmən edib dünyanın cənnət guşələrindən biri olan Qafqazı qan çanağına döndərmək" (4, s. 64-65) olaraq qiymətləndirir. Romanda tarixi reallığa uyğun olaraq verilən bu faktlar Ziya Bünyadov haqqında dissertasiya yazan Sara Krombax da təsdiq edir. Onun dissertasiyasında bu görkəmli akademikin Azərbaycan Ermənistan münaqişəsi kontekstində fəaliyyətinə nəzər yetirilir və onun rolu xüsusi qeyd edilir. Lakin bu rola başqa bir rakursdan yanaşır. Hollandiyalı alim Qarabağ probleminin başlanması və xronologiyası ilə əlaqədar verdiyi məlumat obyektiv olsa da, Z.Bünyadovu erməni ekstremisti Zori Balayanla eyni tutması həqiqəti əks etdirmir. Azərbaycan tədqiqatçıları Şahin Mustafayev və Fərda Əsədov hollandiyalı alimin bu qüsurunu qeyd edirlər: "Müəllif Balayanın məlum kitabını aradakı düşmənçiliyə təkan verən və "ermənilərin böyüklüyünü əsaslandıran irqçi" əsər adlandırır. Bununla belə, o bu münaqişənin inkişafı və müharibə mərhələsinə keçməsində nəyə görə isə Azərbaycan tərəfinin də üzərinə eyni məsuliyyəti qoyur və bu hadisələrdə Ziya Bünyadovun da guya "mənfi rol" oynadığını qeyd edir" (8, s. 12).

Bütün çətinliklərə baxmayaraq, Ziyad Şıxlı xalqının yanında olur; 20 Yanvardan mətanətlə keçir, ən yüksək kürsülərdə öz sözünü deməyi bacarır. Xalqın bir əsrdə ikinci dəfə müstəqilliyini qazanmasında onun da rolu olur. Müstəqil ölkənin millət vəkili seçilir. Doğrudur, millət vəkili kimi də yaxşı fəaliyyət göstərir, müəyyən problemlər qaldırır, özünün kəskin sözünü deyir. Ancaq yazıçı onun millət vəkilliyinə o qədər də geniş yer vermir. Daha doğrusu xalqın yaddaşında qəhrəman-akademik kimi qalan Ziyad Şıxlı obrazı elə əsərdə də bu cür faktlaşdırılır. Akademikin özü də Milli Məclisdəki münasibətləri "mənasız" adlandırmaqla, "bu hadisələrin heç birindən elmi araşdırmalardan aldığım ləzzəti ala bilmirəm", -deməklə daha çox özünün doğma missiyasına üstünlük verdiyini demək istəyir.

Ziyad Şıxlını yazıçı həm də cəmiyyət içərisində böyük mənəvi cavabdehlik və məsuliyyət daşıyan dünya şöhrətli, beynəlxalq miqyaslı bir alim kimi təqdim edir. Biz onu həm sovet, həm də postsovet dövründə ən uca kürsülərdə, qlobal, yaxud milli problemlər qaldıran bir alim kimi görürük. Azərbaycanın ictimai proseslərində iştirakı heç də onu nüfuzlu alim peşəsindən, elmdən ayırmır. Sumqayıt kimya zavodlarının region çün böyük kimyəvi təhlükəsinə, Kürün Gürcüstan hissəsinin çayı çirkləndirməsi, Aral və Urmiya göllərinin duzlaşmasına, erməni mis mədənlərinin zəhərinin Araza axıdılması kimi ekoloji məsələlər də onun fəaliyyətinin əsas prioritetini təşkil edir. Yazıçı bununla Ziyad Şıxlının alim-vətəndaş obrazına yeni çalarlar əlavə etmişdir. Əslində bu kimi məsələlərlə məşğul olmaq, heç də ictimai proseslərdən aktuallıq baxımından geri qalmırdı. Urmiya gölünün qurudulması ilə bağlı fikirləri bu cür və-

təndaşlıq düşüncəsindən doğurdu. Onun İranda olarkən hörmət əlaməti olaraq digər konfrans iştirakçılarından ayıraraq ayrıca yüngül maşında aparılması və yolda qəza törədilməsi, yalnız möcüzə nəticəsində sağ qalması ona edilən xəbərdarlıqlardan biri idi.

Ziyad Şıxlını həm də gen yaddaşının təhlükəsizliyini ilk dərk edən və onu heç də xalqın başına gətirilən repressiya, deportasiya kimi məsələlərdən ayırmır. Bu isə birbaşa xalqın mənəviyyatına yönəlmiş bir təhlükədir. Akademikin yarımçıq qalmış "nağıl-roman"ında övladları olmayan Kamranla Sunay xətti də bu məqsədlə verilir. Yazıçı gen yaddaşının xalqın gələcəyi üçün nə qədər böyük fəlakətlər gətirəcəyini düşündüyündəndir ki, əsərinin ana xəttinə məhz bu problemi qoyur və dünyanı müasir ekoloji hərəkatın bayrağı altında mübarizəyə haraylayırlar: "...repressiyanı bu müharibədən (gen müharibəsindən-X.Z.) ayıra bilməzsən! Başqa cür da baxmaq olmaz, hədəf də, məqsəd də birdir. Yüz illər təkcə insanımızı deyil, təbiətimizi də hədəfə çeviriblər. Üzdə görülən savaşlardan başqa, gizli savaşlar da gedir və heç cür də qarşısını almaq olmur. İnsan təkcə təbiəti deyil, həm də özünü məhvə aparır. Buğdadan-meyvəyə qədər genlər dəyişdirilir. Hər şey mutantlaşacaq" (4, s. 160-161).

Tənqidçi Nərgiz Cabbarlı çox doğru olaraq akademikin "nağıl-roman" adlandırdığı üçüncü qovluqdan çıxan əsəri Ç.Aytmatovun "Kasasndra damğası" əsəri ilə müqayisə etməkdə tamamilə haqlıdır. Tənqidçi Ziyad Şıxlını narahat edən problemin qlobal ifadəsinin millətlərin məhv edilmə yollarından biri olduğuna diqqət çəkərək yazır: "Xatırladaq ki, eyni problem çox uğurlu bir şəkildə qırğız yazıçısı Çingiz Aytmatovun da "Kassandra damğası" adlı romanında əsas motiv kimi götürülüb və bu, həqiqətən də, diqqət yetirilməsi labüd olan, üzərində düşünülməsi gərəkən bir problemdir" (9, s. 16).

S.Rüstəmxanlı "Akademikin son əsəri" romanında Ziyad Şıxlının simasında şəxsiyyətin taleyi ilə xalq taleyini çox doğru olaraq birləşdirir. Bu onun tərcümeyi-halı, yaşadığı həyatla tamamilə üst-üstə düşür. Ziyad Şıxlı üzərinə düşşən məsuliyyəti bütün cavabdehliyi ilə dərk edərək həm siyasi-ictimai, həm elmi, həm mənəvi-əxlaqi sahələrdə mübarizə aparır, həmişə haqqın, ədalətin yanında olur.

**Məqalənin aktuallığı.** Azərbaycan ədəbiyyatında tarixi mövzuda çoxlu bədii əsərlərin yazıldığını və bu nümunələrin böyük əhəmiyyətini nəzərə alaraq, məqalənin də məhz bu mövzuya həsr edilməsi baxımından onu aktual dəyərləndirməliyik.

**Məqalənin elmi yeniliyi.** Müstəqillik dövründə Azərbaycan yazıçılarının tarixi janra müraciəti getdikcə daha da intensivləşir. Məqalədə də S. Rüstəmxanlının "Akademikin son əsəri" romanının tarixi aspektləri araşdırılır ki, bu da onun elmi yeniliyini göstərir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Qarayev Y. Bədii qəhrəman: tarixi mövzu və müasir poetika axtarışları / Qarayev Y. Seçilmiş əsərləri. 5 cilddə, V c., Bakı: Elm, 2016, s. 381-403.
2. Hüseynbəyli E. "Akademikin son əsəri" Sabir Rüstəmxanlının ön sözü kimi... "Olaylar", 2018, 13 fevral, s.13.
3. Əlişanoğlu T. Sabir Rüstəmxanlının sunamisi. "Ədəbiyyat qəzeti", 2017, 2 dekabr.
4. Rüstəmxanlı. Akademikin son əsəri. Bakı: Sabir Yazarlar Ocağı, 2017, 320 s.
5. Oruel C. 1984 (ingiliscədən tərcümə edəni və ön sözün müəllifi V.Quliyev), Bakı.
6. Quliyev V. "1984"ün 60 yaşı. "525-ci qəzet", 2009, 10 oktyabr.
7. Kənan H. Məğlub qəhrəman, qalib akademik. "Kaspi", 2017, 21 oktyabr.

8. Mustafayev Ş., Əsədov F. Akademik Ziya Bünyadov: bizim yadadşımızda və özgələrinin təsvirində. “525-ci qəzet”, 2019, 6 noyabr, s. 12-13.
9. Cabbarlı N. Roman janrı-yeni texnologiyalar, yeni poetik xüsusiyyətlər. “Ədəbiyyat qəzeti”, 2018, 6 iyun, s. 16.

**Х.Я. Заманова**

## Образ Зияда Шихли в романе «Последнее произведение академика» в контексте исторических реалий

## Резюме

В статье исследуются исторические аспекты романа С.Рустамханлы «Последнее произведение академика». Отмечается, что обращение азербайджанских писателей к историческому жанру в период независимости становится все более интенсивным. В этот период писатель написал «Пик Смерти», «Бог неба», «Землю Хатаи», «Пик смерти», «Мученики Дифаи», «Цунами», «Поэт и зло» и другие. Его произведения художественно выражают единство истории и современности. В этом смысле роман С.Рустамханлы «Последнее произведение академика» привлекает внимание разнообразием идей и содержания, богатством жанров и стилей, структурой, поиском художественных новшеств, что совпадает с его биографией и жизнью, которой он живет. Зияд Шихли, осознавая свою ответственность со всеми своими обязанностями, борется в политической, социальной, научной и моральной сферах, всегда на стороне истины и справедливости.

**X.Y. Zamanova**

## The image of Ziyad Shikhli in the novel “The Last Work of the Academician” in the context of historical realities

## Summary

The article examines the historical aspects of the novel “The last work of the academician” by S. Rustamkhanli. It is noted that the appeal of Azerbaijani writers to the historical genre during the period of independence is becoming more intensive. During this period, the writer wrote “Death Peak”, “Sky God”, “Khatai Land”, “Death Peak”, “Difai Martyrs”, “Tsunami”, “Poet and Evil” and others. His works express the unity of history and modernity in an artistic way. In this sense, S.Rustamkhanli's novel “The Last Work of the Academician” attracts attention with its diversity of ideas and content, richness of genres and styles, structure, search for artistic innovation. This coincides with his biography and the life he lives. Ziyad Shikhli, realizing his responsibility with all his responsibilities, fights in the political, social, scientific and moral spheres, and is always on the side of truth and justice.

**Redaksiyaya daxil olub:** 06.12.2021